# KÜRDƏMİR: ARZULAR GERÇƏKLƏŞİR

(əvvəli ötən saylarımızda)

**2019-cu ilin birinci rübü ərzində "Azəriqaz" İstehsalat Birliyinin Təmir-Tikinti idarəsi tərəfindən rayonun Qağacılı kəndində yenidənqurma işləri aparılmış, 77 nəfər abonentə diametri 76 mm olan borudan istifadə edilməklə 1600 metr yeni qaz xətti çəkilmiş, sayğaclar quraşdırılmışdır.Rayonun qazlaşdırılmamış Qarabucaq qəsəbə, Qarabucaq və Qurdbayram kəndlərinin qazlaşdırılması ilə əlaqədar tikinti işlərinə başlanılmış, hazırda daşıyıcı xəttin çəkilişinə və yaşayış məntəqələrinin qazlaşdırılmasına başlanılmışdır.**



2019-cu ilin birinci rübündə Kürdəmir şəhər əhalisinə içməli su və çirkab suların axıdılması üzrə xidmətlərin yaxşılaşdırılması sahəsində müəyyən işlər görülmüşdür.

Şəhərə gələn mərkəzi su xətlərində müxtəlif siyirtmələr yenisi ilə əvəz edilmiş, küçə xətlərində su sızmalarının qarşısı alınmış, xətt boyunca təmir işləri həyata keçirilmişdir. 2019-cu ilin üç ayı ərzində 25109 nəfər əhaliyə su və kanalizasiya xidməti göstərilmiş, 125077 manat su pulu yığılmış, 200 qeyri-əhali abonentinə xidmət göstərilmişdir.

2019-cu ilin birinci rübündə telefon rabitəsinə olan tələbatla əlaqədar 72 vətəndaşa telefon xətti çəkilmiş, internet abunəçilərinin sayı 3406 nəfərə çatdırılmış, yeni nəsil 4G "LTD" şəbəkəsinin istifadəyə verilməsi ilə əlaqədar Carlı, Xəlsə, Qocalı kəndləri istiqamətində 7 km optik kabel çəkilmişdir.

2019-cu ilin 3 ayı ərzində rayon Kommunal Müəssisələri Kombinatı və Mənzil İstismar Sahəsi şəhərin bütün küçə və meydanlarının daim təmiz və səliqəli saxlanılmasında səylə çalışmış, ərazilərdə olan məişət tullantılarının mütəmadi götürülməsi əsasən təmin olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq 2019-cu ilin 3 ayı ərzində rayonda tikinti-quraşdırma, yenidənqurma və abadlıq işləri yerinə yetirilmişdir. Ölkə Rəhbərinin müvafiq sərəncamına uyğun olaraq Kürdəmir rayonunda "Xalça istehsalı emalatxanası"nın tikintisi işləri başa çatdırılmış, hazırda ərazidə abadlıq işləri davam etdirilir. Dövlət Proqramına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 mart tarixli Sərəncamı ilə Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin tikintisinə başlanılmış, "ASAN xidmət" mərkəzində restoran, yeməkxana, çay evi və "ASAN xidmət"in əsas binasının dəmir-beton hissələri və aralıq divar qatlarının hörgü işləri tamamlanmış, daxili və xarici kommunikasiya xətlərinin montaj işlərinə başlanılmışdır. Hazırda binanın keramik daş və şüşə üzlüklərlə üzlənməsi işlərinə başlanılmışdır. "Azpetrol" yanacaq doldurma məntəqəsi və motel binasının tikintisində əsas dəmir-beton işləri tamamlanmış, arakəsmə divarlarının tikintisi davam etdirilir.



Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 01 iyul tarixli 298 nömrəli sərəncamı ilə təsdiq olunmuş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na edilmiş "Əlavələr"in icrası ilə əlaqədar rayon ərazisində məskunlaşmış məcburi köçkün ailələrinin mənzil məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə rayonun Xırdapay kəndinin ərazisində 563 məcburi köçkün ailəsi üçün 17 ədəd 4 mərtəbəli ictimai yaşayış binasının, 452 şagird yerlik məktəb binasının, 140 yerlik uşaq bağçasının, icma-klub, inzibati bina, həkim məntəqəsi və ATS binasının tikintisinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Respublika Təhsil Nazirliyinə ayrılmış vəsait hesabına rayonun Bağman kəndində 80 şagird yerlik tam orta, Öyləqulu və Təklə kəndlərinin hər birində isə 80 şagird yerlik modul tipli ümumi orta məktəb binalarında tikinti-quraşdırma işləri başa çatdırılmış, hazırda son tamamlama və abadlıq işləri aparılır.



Qarasu kənd tam orta məktəbi üçün yeni binanın tikintisi ilə əlaqədar topoqrafiya işləri aparılmış, hazırda layihə-smeta sənədləri hazırlanır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırığına əsasən 2019-cu ilin fevral ayının 10-dan rayonda əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmışdır.

Rayon üzrə 74097 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 3363 nəfəri ambulator, 344 nəfəri stasionar müalicəyə cəlb edilmiş, 191 nəfəri Bakı şəhərinə göndərilmiş, 4 nəfəri üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliği rayon İcra Hakimiyyəti Başçısı Aparatının apardığı ideoloji işin başlıca istiqamətini təşkil edir.

Öləmizdə 10 milyonuncu vətəndaşın doğulması ilə əlaqədar rayonda geniş tədbirlər keçirilmiş, bu tarixi hadisə ağacəkmə kampaniyaları, konsert proqramları və atəşfəşanlıqla qeyd edilmişdir.

Hesabat dövründə gənclərin Milli Ordu sıralarına hərbi xidmətə göndərilməsi və qarşılanması bayram əhval ruhiyyəsində təşkil olunmuş, "Açıq qapı" günlərində hərbi hissələrə səfərlər edilmişdir. 2019-cu ilin "Nəsimi" ili elan edilməsi ilə əlaqədar olaraq məktəblərdə aidiyyatı təşkilatlarla birgə müxtəlif mövzularda tədbirlər keçirilmişdir.Yaşıllıqların salınması məqsədi ilə rayonda 2019-cu ilin birinci rübündə 12 min müxtəlif ağac və gül kolları əkilmişdir.

Məruzə ətrafında çıxış edən Kürdəmir Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi Mətləb Kərimov, Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Eynulla Novruzov, Rayon Məşğulluq Mərkəzinin direktoru İlham Həmidov, Kürdəmir Elektrik şəbəkəsinin rəisi Mirkazım Qubadov 2019-cu ilin birinci rübündə rayonda sosial-iqtisadi inkişaf sahəsində görülmüş işlərdən ətraflı danışıblar.

Prezident Administrasiyasının məsul işçisi Qalib Əsgərov yığıncaqda çıxış edərək dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyasından, həyata keçirilən aqrar islahatlardan, əldə olunan uğurlu nəticələrdən, habelə qarşıda duran konkret vəzifələrdən danışıb.

**Yığıncaqda müzakirə olunan məsələlər barədə müvafiq qərarlar qəbul edilib. Sonda Kürdəmir Rayon İcra Hakimiyyətinin Başçısı Ceyhun Cəfərov hesabatı yekunlaşdıraraq qarşıda duran mühüm vəzifələri diqqətə çatdırdı.**

**Məzahir ƏHMƏDZADƏ**